**Davudov D.R.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.75.69-78**
**UDC: 342.7+347.22**

## The right to digital property as an integral part of the right to property

**Abstract:** The problem of the existence of digital (virtual) property is one of the most pressing issues of modern jurisprudence. Objects called virtual or digital are intuitively perceived as existing in the form of program code in electronic computing systems. However, these concepts are not entirely identical. Virtuality refers to the characterization of the nature of an object, while the term "digital" refers to the characterization of the form of expression. Virtual is opposed to real (material, physical), digital is opposed to analog. Thus, given the need for digital property research, property can be classified on two grounds: nature and form of presentation. By nature, you can divide objects into virtual and material, in the form of representation into digital and analog. Virtual objects find their expression mainly in digital form, but they can exist in analog form, for example, thoughts, fantasies, ideas, etc. The phenomenality of the term "digital property" lies in the fact that it combines objects of property of different origin, similar in their digital form.

**Key words:** the right to property; digitalization; digital property; virtual property; concept; guarantees.

### References

1. Abrosimova E.A., Vlasenko E.V. Inheritance of accounts in social networks in Germany and Sweden // Bulletin of St. Petersburg University. Law, 2022, Vol. 13, Issue 2, pp. 452-468 (in Russian).

2. Arkhipov I.V. Digital civil law: on the issue of a paradigm shift // Legal Science, 2023, No. 8, pp. 230-235 (in Russian).

3. Arkhipov I.V. Digital equivalents of property in the functional theory of law // Legal Science, 2021, No. 9, pp. 8-14 (in Russian).

4. Kamyshanova A.E. Digital rights, digital finance and digital currency – fiction or property? // Bulletin of the Taganrog Institute of Management and Economics, 2020, No. 2, pp. 68-71 (in Russian).

5. Kress V.V. On the issue of the concept of virtual (digital) property as an object of civil rights // Education. Science. Scientific personnel, 2024, No. 1, pp. 164-175 (in Russian).

6. Tumakov A.V., Petrakov N.A. Civil legal aspects of digital property // Bulletin of the Moscow University of the Ministry of Internal Affairs of Russia, 2021, No. 4, pp. 67-72 (in Russian).

7. Fathi V.I. Legal status of virtual gaming property in the context of civil regulation // Bulletin of the Faculty of Law of the Southern Federal University, 2022, Vol. 9, No. 4, pp. 113–121 (in Russian).

8. http://technimum.com/blog/1763.html

[♦] **Davudov Davud Rasim oglu** - PhD in Law, Lecturer of "Law" Department of National Aviation Academy (Azerbaijan). E-mail: ddavudov@naa.edu.az

**Davudov D.R.**[♦]

**DOI: 10.25108/2304-1730-1749.iolr.2024.75.69-78**
**UOT: 342.7+347.22**

## Rəqəmsal əmlaka olan hüquqmülkiyyət hüququnun tərkib hissəsi kimi

**Xülasə**: Rəqəmsal (virtual) əmlakın mövcudluğu məsələsi müasir hüquqşünaslığın ən aktual problemlərindən biri kimi çıxış edir. Virtual, yaxud rəqəmsal adlandırılan obyektlər intuitiv olaraq elektron-hesablama sistemlərində proqram kodu şəklində mövcud olan obyektlər qismində dərk edilir. Lakin bu anlayışlar heç də tam anlamda eyniyyət təşkil etmir. Virtuallıq obyektin təbiətinə xas olan əlamətdir, rəqəmsallıq isə obyektin təzahür olunması formasına xas əlamətdir. Virtual olan bir şeyin əks tərəfində real olan (maddi olan, fiziki olan) bir şey durursa, rəqəmsal olan bir şeyin əks tərəfində analoq olan bir şey durur. Beləliklə, rəqəmsal əmlakın tədqiq edilməsi ehtiyaclarının ödənilməsi baxımından əmlak kateqoriyasını iki əsasa görə təsnif etmək mümkündür: təbiətinə görə və təzahür formasına görə. Təbiətinə görə əmlak virtual və maddi əmlaka, təzahür formasına görə isə əmlak rəqəmsal və analoq əmlaka bölünə bilər. Bir qayda olaraq, virtual obyektlər rəqəmsal formada təzahür olunurlar, lakin bəzən virtual obyekt analoq formada da mövcud ola bilər (məsələn, ideyalar və s.). "Rəqəmsal əmlak" termininin özəlliyi ondadır ki, o, özündə təbiətinə görə müxtəlif növlərə aid olan əmlakları, rəqəmsal formada təzahür olunma əlamətinə görə birləşdirə bilir.

**Açar sözlər**: mülkiyyət hüququ; rəqəmsallaşma; rəqəmsal əmlak; virtual əmlak; anlayış; təminatlar.

XXI əsr rəqəmsal informasiya texnologiyaları əsridir. Son illərdə rəqəmsal informasiya texnologiyalarının dinamik sürətlə inkişaf etməsi tamamilə yeni – rəqəmsal reallıq yaratmışdır. Rəqəmsal informasiya texnologiyaları günü-gündən mövcud ictimai, o cümlədən hüquq münasibətlərinə siraət edir və onlara yeni keyfiyyət qazandırır (məsələn, on-layn bankçılıq, on-layn təhsil, elektron sosial xidmətlər və s.). Rəqəmsal informasiya texnologiyalarının inkişafı artıq mövcud olan münasibətlərə yeni keyfiyyət qazandırdığı kimi, ümumiyyətlə, əvvəllər analoqları mövcud olmayan, tamamilə yeni qavramların da yaranmasına və insanların həyatına siraət etməsinə təsir göstərir (məsələn, kriptovalyuta, əşyaların interneti, rəqəmsal iqtisadiyyat və s.). Belə demək olar ki, hazırda dövlət və cəmiyyət həyatının rəqəmsallaşması prosesi gedir və bu proses əvvəllər məlum olmayan, lakin hazırda kifayət qədər əhəmiyyət kəsb edən rəqəmsal hüquqların da meydana gəlməsini şərtləndirir. Ən ümumi şəkildə rəqəmsal hüquqlara insanların rəqəmsal məzmun (kontekt), yaxud hesab (akkaunt) yaratmaq, onları idarə etmək, onlara sahib olmaq, onlardan istifadə etmək, onlar barədə sərəncam vermək (onları ləğv etmək, başqasına ötürmək və s.), eləcə də, informasiya-kommunikasiya şəbəkələrinə (İnternet) daxil olmaq, həmin şəbəkələrə məlumat əlavə etmək, yaxud məlumat götürmək imkanları kimi anlayış vermək mümkündür. Hüquqların (bir davranış imkanı olaraq) rəqəmsallaşması, qaçılmaz olaraq, ictimai münasibətlərin də

[♦]**Davudov Davud Rasim oğlu** - hüquq üzrə fəlsəfə doktoru, Milli Aviasiya Akademiyasının "Hüquq" kafedrasının müəllimi (Azərbaycan). E-mail: ddavudov@naa.edu.az

rəqəmsallaşmasına səbəb olur, çünki hüquqlar (bir davranış imkanı olaraq) ictimai münasibətlərin əsas tərkib elementlərindən biridir. Eyni zamanda ictimai münasibətlərin rəqəmsallaşması onları nizamlayan qaydaların da bu amili nəzərə almasını tələb edir. Bu isə, öz növbəsində, hüququn (ictimai münasibətləri tənzim edən qaydalar sistemi olaraq) rəqəmsallaşması zərurətini yaradır. Hüququn rəqəmsallaşması onun bütün sahələrinə bu və ya digər dərəcədə öz təsirini göstərir. Mülki hüquq və onun əsas obyekti olan mülkiyyət hüququ da bundan istisna deyildir. Beləliklə, hazırda rəqəmsal mülkiyyət hüququnun anlayışı, onun realizə və təmin edilməsi məsələləri hüquq elmi qarşısında duran aktual problemlərdən biri kimi çıxış edir.

Hüquq ədəbiyyatında ən ümumi şəkildə rəqəmsal mülkiyyət hüququ rəqəmsal mülkiyyətə (rəqəmsal əmlaka) olan hüquq kimi izah edilir. Bu isə, öz növbəsində "rəqəmsal mülkiyyət" (rəqəmsal əmlak) kateqoriyasının özünün izah edilməsi zərurətini yaradır.

Qeyd etmək lazımdır ki, Azərbaycan dili üçün nisbətən yeni olması səbəbilə, dilimizdə "rəqəmsal" termininin özündən istifadə edilməsinin doğru olub-olmaması məsələsi müəyyən qədər mübahisəli görünə bilər.Bununla əlaqədar olaraq, milli internet portallarının birində "Rəqəmli yoxsa, rəqəmsal?" başlığı altında kifayət qədər maraqlı bir təhlil də yer almışdır. Adı çəkilən təhlildə qeyd edilir ki, artıq bir neçə ildir ki, "rəqəmli" və ya "rəqəmsal" terminləri arasında seçim etmək məsələsi birmənalı qarşılanmır və bu da mübahisələrə səbəb olur. Müxtəlif sahələrdə kompyuterlərin tətbiqi gün-gündən genişləndikcə bizdə də bu termin mübahisəsi eyni templə daha da gərginləşir. Təhlildə hər iki terminin tərəfdaşlarına bərabər şərtlərlə yanaşmaq üçün şərti olaraq termin ingiliscə işlədilir: digital. Təhlildə qarışıqlığın qarşısını əvvəlcədən almaq məqsədilə*digital* nədir? sualı araşdırılır və göstərilir ki, QOST 17657-79 sənədində yazılana görə: digital siqnal – hər bir parametri diskret zaman funksiyası və sonlu qiymətlər çoxluğu ilə təyin olunmuş verilənlər (məlumat) siqnalıdır. AraşdırmadadahasonraElektrotexnika və Elektronika Mühəndisləri İnstitutunun (InstituteofElectricalandElectronicsEngineers – İEEE) *IEEE Standard Glossary of Mathematics of Computing Terminology* sənədinə müraciət edilir və belə nəticə çıxarılır ki, qeyd edilən sənədə görə, digital siqnal – verilənlərin (data) ötürülməsi zamanı istifadə olunan siqnal tipidir. Analoq siqnallardan fərqli olaraq digital siqnal iki qiymət alır (şərti olaraq, 0 və 1). Şərti sıfrın və şərti birin hansı gərginliyə aid olması dövrənin məntiqindən (CMOS, TTL və s.) asılıdır. Kompyuterdə də verilənlər (fayllar və digər bütün məlumatlar) digital formadadır. Bu izahlardan sonra təhlildə həmin terminin azərbaycancaya tərcümə məsələsinə keçilir və qeyd edilir ki, son zamanlar həmin termini bir çoxları rəqəmsal kimi tərcümə edirlər. Bu termini bəyənənlər əsas götürürlər ki, qumlu olan yerə qumsal deyilirsə, rəqəmli olan şeyə dərəqəmsal demək lazımdır. Bəziləri də Türk dilindən götürməklə bu terminin tərəfdarlarıdır. Digərləri rəqəmli sözünün dilimizə daha yaxşı oturduğunu iddia edirlər. Bəs hansı daha doğrudur?Digital signal anlayışı kompyuterdən əvvəl elektronikanın anlayışıdır. Mikrosxemlər arasında məlumatlar digital formada ötürülür. Elə QOST və IEEE-nin materiallarına da ona görə istinad etməyə ehtiyac duyulur. Araşdırmada göstərilir ki, ölkəmizdə elektronika üzrə məktəb olub və terminologiya məsələsinə çox ciddi şəkildə yanaşıblar və işlər görüblər. Təhlildə istinad mənbəyi kimi professor Zəki Kazımzadə və professor Rəna Kazımzadənin yazdığı Rusca-Azərbaycanca Elektrotexnika terminləri lüğəti ən yaxşı mənbə kimi dəyərləndirilir və həmin mənbəyə istinadən rəqəmli termini daha uğurlu hesab edilir [8]. Buna rəğmən, rəqəmsal sözü artıq dilimizə siraət etmişdir və hüquq müstəvisində də bu sözdən geniş istifadə edilir.

Mülkiyyət istənilən cəmiyyətin iqtisadi əsasını təşkil edən mühüm iqtisadi və hüquqi dəyərdir, mülkiyyət hüququ isə şəxsiyyətin öz hüquq və azadlıqlarını həyata keçirməsinin mühüm

təminatıdır. Mülkiyyət hüququ mülkiyyətçinin ona məxsus əmlak üzərində mümkün davranış həddi olmaqla sahiblik, istifadə və sərəncam hüquqlarının məcmusundan ibarətdir. Sahiblik hüququ əşyanı öz təsərrüfatında saxlamaqla ona faktiki sahiblik edilməsini, istifadə hüququ əşyadan təyinatına uyğun istifadə olunmaqla onun faydalı xassələrinin hasil edilməsini, sərəncam hüququ isə əşyanın hüquqi müqəddəratının müəyyən edilməsini nəzərdə tutur. Sərəncam hüququ yalnız mülkiyyətçiyə məxsus ola bildiyi halda, sahiblik və istifadə hüquqları mülkiyyətçi olmayan digər şəxslərə də məxsus ola bilər. Mülkiyyət hüququ yalnız qanunvericilikdə nəzərdə tutulan hüquqi faktın və ya belə faktların məcmusunun mövcudluğu halında yaranır.

İnsan Hüquqlarına dair Avropa Məhkəməsi *Von Maltzan & others v. Germany, Anheuser-Busch Inc. v. Portugal, Marckx v. Belgium, Pressos Compania Naviera S.A. & others v. Belgium* və s. bu kimi işlər üzrə qərarlarında bildirmişdir ki, 1 saylı Protokolun 1-ci maddəsinin müddəaları "mövcud olan" mülkiyyətə (mülkiyyət hüququna) şamil edilir. Buradakı "mövcud olma" termini maddi aləmdə mövcudluğu, mülkiyyətin mütləq konkret əşya kimi çıxış etməli olmasını nəzərdə tutmur. Mülkiyyət real, yəni maddi aləmdə mövcud olan əşya kimi də çıxış edə bilər, aktivlər (məlum olduğu kimi, mühasibat işində aktivlərin maddi növləri olduğu kimi, qeyri-maddi növləri də ola bilər), tələb hüququ, eləcə də, qanuni gözlənti kimi də çıxış edə bilər. Bu anlamda, mülkiyyətin mövcudluğu, onun real maddi aləmdə mövcud olmasını (əllə toxunula bilən, gözlə görünə bilən və s. olmasını) deyil, onun bir hüquq olaraq, pozulduğu anda mülkiyyətçiyə həqiqətən də məxsus olmasını nəzərdə tutur. Hesab edirik ki, İnsan Hüquqlarına dair Avropa Məhkəməsinin belə hüquqi mövqe sərgiləmiş olması rəqəmsal mülkiyyət hüququnun müdafiəsi baxımından da çox önəmlidir, çünki rəqəmsal mülkiyyət hüququ rəqəmsal əmlaka, yəni maddi aləmdə mövcud olmayan, virtual şəkildə mövcud olan bir əmlaka olan hüquqdur və bu baxımdan, maddi aləmdə mövcud olmasa da, mülkiyyətçiyə məxsus olan əmlakın hüquqi müdafiə altına alınması olduqca vacibdir.

A.V. Tumakov və N.A. Petrakov özlərinin "Rəqəmsal əmlakın mülki-hüquqi aspektləri" adlı elmi məqalələrində qeyd edirlər ki, rəqəmsal əmlakdan bəhs edərkən, onun özünün də virtual və maddi formalarını fərqləndirmək lazımdır. Başqa sözlə, adları çəkilən müəlliflərin fikrinə görə, rəqəmsal əmlakı təkcə onun ikili say sisteminə məxsus kodlar vasitəsilə ifadə edilmiş olması əlaməti əsasında maddi əmlakdan fərqləndirmək kifayət deyildir. Onların yanaşmasına görə, rəqəmsal maddi, yaxud rəqəmsal fiziki əmlaka mülki hüquqa artıq məlum olan, lakin ənənəvi (analoq) üsulla ilə deyil, müasir texnologiyaların tətbiqi vasitəsilə elektron formada yaradılmış əmlak aid edilməlidir (məsələn, kompyuter animasiyası, elektron musiqi, rəqəmsal rəsm əsəri və s.).Rəqəmsal virtual əmlak qismində isə kriptovalyutalar (rəqəmsal valyuta), virtual tokenlər, domen adları, sosial şəbəkələrdə qeydiyyata alınmış hesablar (akkauntlar), şəbəkə oyunlarında istifadə olunan əmlak nəzərdən keçirilməlidir [6, s. 69-70].

V.V. Kress də özünün "Mülki hüquqların obyekti kimi virtual (rəqəmsal) əmlakın anlayışı məsələsinə dair" adlı məqaləsində qeyd edir ki, rəqəmsal mülkiyyət hüququ məsələlərinə aydınlıq gətirilə bilməsi üçün mütləq şəkildə "virtual əmlak", "rəqəmsal əmlak", "rəqəmsal aktivlər" kimi kateqoriyalar hüquqi müstəvidə nəzərdən keçirilməli və ilk növbədə, hüquq elmində eyni məsələyə dair terminoloji müxtəliflik problemi həll edilməli və virtual (rəqəmsal) əmlak termininin vahid anlayışı işlənib hazırlanmalıdır. Adı çəkilən məqaləsində V.V. Kressin özü virtual (rəqəmsal) əmlakın doktrinal anlayışının aşağıdakı mühüm əlamətlər əsasında formalaşdırılmalı olması qənaətini ifadə edir. Virtual (rəqəmsal) əmlak:

- mülki hüquqların xüsusi, qeyri-maddi obyektidir;

- iqtisadi və ya potensial dəyərə malikdir;

- öz qaydaları olan konkret informasiya sistemi hüdudlarında mövcuddur (o, belə sistemdən öz dəyərliliyini şərtləndirən xassələrini itirmədən ayrıla bilmir [5, s.172].

Hüquq ədəbiyyatında V.İ. Fatxi tərəfindən də on-layn şəbəkə oyunlarında istifadə olunan virtual əmlakın hüquqi təbiəti araşdırılarkən, haqlı olaraq qeyd edilir ki, virtual əmlak kateqoriyasına hələki qanunverici orqan tərəfindən leqal tərif verilməmiş olmasına rəğmən, onun hüquqi əhəmiyyət kəsb edən bir sıra xüsusiyyətlərini müəyyən etmək mümkündür. Belə ki, virtual əmlak rəqəmsal aktiv qismində çıxış edir, iqtisadi ekvivalentə malik olur və əmlak illüziyası yaradır. V.İ. Fatxi, həmçinin, on-layn şəbəkə oyunlarında istifadə olunan virtual əmlaka münasibətdə belə əmlakın növbəti əlamətlərini fərqləndirir:

- qeyri-maddilik və maddi aləmdən münfəridlik (maddi daşıyıcısı olmadan mövcud ola bilmə qabiliyyəti);

- yalnız konkret virtual aləmdə (on-layn şəbəkə oyunlarında istifadə olunan virtual əmlaka münasibətdə konkret on-layn oyunda) dəyərə malik olma və istifadəyə yararlı olma;

- yalnız xüsusi texniki avadanlıq, rəqəmsal informasiya texnologiyaları (bilgisayar, planşet, smartfon və s.) vasitəsilə əlçatan olma və istifadə edilə bilmə;

- unikal rəqəmsal kodlanmadan irəli gələn nisbi fərdi konkretlik və eyni zamanda böyük həcmdə tirajlana bilmə qabiliyyəti (məsələn, “World of tanks” on-layn şəbəkə oyununda ilk dəfə yaradıldığında yalnız vahid nüsxədə mövcud olan “elit premium tank” modeli müəyyən zaman keçdikdən sonra çox sayda tirajlanmaqla nüsxələri artırıla bilər);

- özündə əşyavi əlamətlərlə əqli mülkiyyət əlamətlərini birləşdirmə (on-layn şəbəkə oyununda virtual əmlakın əşyavi əlamətləri özünü onda göstərir ki, belə əmlaka malik olan oyunçu əşya üzərində mülkiyyət hüququnu həyata keçirdiyi kimi virtual əmlak üzərində də sərəncam verə bilir, ondan istifadə edir, ona sahiblik edir; digər tərəfdən bəzi on-layn şəbəkə oyunları oyunçulara öz yaradıcılıq qabiliyyətindən istifadə etmək üçün – yeni personajların yaradılmasında, mövcud personajların modifikasiya edilməsində, oyun daxili yeni obyektlərin yaradılmasında, mövcud obyektlərə yeni görüntü, xassə əlavə olunmasında və s. geniş imkanlar verir ki, bu da oyunçular tərəfindən yaradılmış oyundaxili əmlaka müəlliflik hüququnun obyekti kimi baxmağa zəmin yaradır) [7, s. 115].

Yeri gəlmişkən, qeyd edilməlidir ki, hüquq ədəbiyyatında rəqəmsal əmlak dokrinası birmənalı qarşılanmır. Belə ki, baxılan məsələyə münasibət bildirən müəlliflər arasında bu ideyanı dəstəkləməyənlər də mövcuddur.

Məsələn, İ.V. Arxipov özünün 2021-ci ildə dərc edilmiş “Hüququn funksional nəzəriyyəsində əmlakın rəqəmsal ekvivalentləri” adlı məqaləsində qeyd edir ki, əmlaka dair rəqəmsal hüquqların mövcudluğu hələ əmlakın da buna uyğun növünün – rəqəmsal əmlakın olmasına dəlalət etmir. Onun fikrinə görə, mülki dövriyyə obyektlərinin sisteminin məntiqi cəhətdən ziddiyyətsiz bir şəkildə qurlması üçün “əmlak ekvivalentləri” terminindən istifadə etmək daha doğru olardı. Belə ki, rəqəmsallaşmaya qədərki dövrdə də əmlak ekvivalentləri mövcud olmuşdur. Pullar, qiymətli kağızlar, əmlak hüquqları – bunlar hamısı əmlak ekvivalentləridir, çünki onların heç biri əmlakın əsas əlamətinə, yəni sırf öz xassələri hesabına insanların həyati ehtiyaclarını ödəmək qabiliyyətinə malik deyillər. Əmlak ekvivalentləri insanların həyati ehtiyaclarını yalnız mübadilə prosesində, əmlak dövriyyəsi aktları nəticəsidə ödəyə bilirlər. Bu anlamda, əmlak dövriyyəsində istifadə olunan rəqəmsal obyektlər də (rəqəmsal hüquqlar, tokenlər, rəqəmsal valyuta və s.), prinsipcə, əmlak ekvivalentləri kimi çıxış edirlər. Onların rəqəmsal forması onların mahiyyətinə təsir etmir, yəni

onlar sadəcə əmlakın rəqəmsal ekvivalenti kimi çıxış edirlər. İ.V. Arxipov təklif edir ki, mülki hüququn rəqəmsallaşması məqsədlərindən ötrü mülki hüquqların obyektlərinin təsvir edilməsi üçün ümumiyyətlə subyektiv hüquq kateqoriyasından imtina edilməlidir [3, s. 8, 13]. Eyni müəllif özünün 2023-cü ildə dərc edilmiş "Rəqəmsal mülki hüquq: paradiqmanın dəyişməsi məsələsinə dair" adlı məqaləsində yuxarıda qeyd edilən yanaşmasını daha da inkişaf etdirərək göstərir ki, mülki hüququn ənənəvi baza anlayışları, o cümlədən, mülkiyyət hüququ kimi terminlər vasitəsilə rəqəmsal mühitdə mövcud olan münasibətləri təsvir etmək mümkün deyildir. İ.V. Arxipov hesab edir ki, əmlakın rəqəmsal ekvivalentləri üzərindəki mütləq hüquq yalnız sərəncam hüququ kimi təsvir edilə bilər. Fikrinə istinad edilən müəllif mülki qanunvericiliyə rəqəmsal obyektlərə də münasibətdə tətbiq edilməli olan "əmlak ekvivalentləri" anlayışının əlavə edilməsinin vacibliyi ideyasını da təklif edir və əsas arqument kimi onu göstərir ki, onlar əmlakın malik olduğu bütün əlamət meyarlarına cavab vermirlər [2, s. 230].

Hüquq ədəbiyyatında hazırda da rəqəmsal hüquqlara, rəqəmsal maliyyə vəsaitlərinə, vəqəmsal valyutaya və s. hüquqi fiksiya qismində, yaxud real əmlak qismində yanaşılmalı olması barədə fikir müxtəlifliyi qalmaqda və müzakirələr aparılmaqdadır [4, s. 68-69].

Rəqəmsal mülkiyyət hüququ haqqında elmi və praktiki mülahizələr formalaşdıqca, onun ayrı-ayrı aspektləri də müstəqil doktrinal və təcrübi problemlər kimi meydana çıxmağa başlayır. Bunun bariz nümunəsi kimi, rəqəmsal mülkiyyətin miras qoyulması problemidir. Rəqəmsal mülkiyyətə vərəsəlik hüququna dair doktrina və qanunvericilik hələ bütün dünyada formalaşma mərhələsindədir. Buna rəğmən, bəzi dövlətlərin bu sahədə artıq müəyyən müsbət təcrübələri mövcuddur.

Məsələn, İsveçin bu sahədə təcrübəsi kifayət qədər maraqlıdır. Bu ölkədə fəaliyyət göstərən "Lavendla Begravning & Juridik" hüquq şirkətinin təcrübəsinə nəzər saldıqda, görünür ki, bu şirkətin müştəriləri vəsiyyətnamənin tərtib edilməsi üçün müraciət etdikləri zaman tez-tez öz ölümlərindən sonra sosial şəbəkələrdəki hesablarının taleyi barədə suallar verirlər,o cümlədən, bu hesabların da vəsiyyətnaməyə salına bilinib-bilinməyəcəyi haqqında maraqlanırlar. Belə hallarda ölkə qanunvericiliyinin müddəaları və formalaşmış hüquq tətbiqi təcrübəsi nəzərə alınaraq, şirkətin hüquqşünasları tərəfindən müştəriyə növbəti addımlardan birinin atılması tövsiyə edilir:

- sosial şəbəkə provayderi ilə bağlanmış istifadəçi razılaşmasının şərtləri hüdudlarında qeyri-aktiv akkaunt barəsində verilə biləcək qərarlardan birini seçmək;
- özündə istifadəçinin müxtəlif on-layn platformalarda mövcud olan akkauntlarına dair giriş məlumatlarını (login, password və s.) əks etdirən, müştəriyə hüquqi xidmət göstərən şirkətin arxivində saxlanılmalı olan və vəsiyyətnamənin açılması zamanı müvafiq vərəsəyə pulsuz təqdim edilməli olan "rəqəmsal vəsiyyətnamə" tərtib etmək;
- akkauntdan təkcə kommunikativ məqsədlərlə deyil, həm də gəlirin əldə edilməsi məqsədilə istifadə edilirsə, miras qoyanın qəfil ölümü halında həmin akkauntdan gələn gəlirin vərəsələr arasında bölüşdürülməsinə dair müddəanın ənənəvi vəsiyyətnamənin məzmununa daxil edilməsi [1, s. 460].

Baxılan məsələ ilə əlaqədar Almaniya təcrübəsi də diqqəti cəlb edir. Müsbət haldır ki, Almaniya Ali Məhkəməsinin "rəqəmsal vərəsəlik" haqqında 12 iyul 2018-ci il tarixli qərarı da mövcuddur. Həmin qərar qəbul edilənədək hüquqi mübahisə aşağı instansiyalarda da baxış predmeti olmuş və nəhayət, iş Ali Məhkəməyə gedib çıxmışdır. Ali Məhkəmənin hüquqi mövqeyi ondan ibarət olmuşdur ki, sosial şəbəkədəki istifadəçi akkauntu üzrə hüquqlar və vəzifələr də istifadəçinin varislərinə keçməlidir. Həmin işin hallarına görə, on beş yaşlı qızın ölümündən sonra onun

“Facebook” sosial şəbəkəsindəki akkauntu “xatirə” (*memorial site*) statusuna keçirilmişdi. Bu statusun özəlliyi ondadır ki, akkaunt belə statusa keçdikdən sonra, həmin akkauntdan daha paylaşımlar etmək mümkün olmur, istifadəçi adının önündə hər zaman “xatırlayırıq” (*remembering*) sözü əks olunur, hətta həmin hesabın parolunu bilən insanlar da akkaunta daxil ola bilmirlər. “Xatirə” statuslu akkauntlar yalnız ölmüş şəxsin xatirəsinin qorunması məqsədi daşıyır və onun yaxınları həmin səhifəyə öz akkauntlarından istifadə etməklə xatirə sözləri, şəkillər və s. əlavə edə bilərlər. Baxılan işdə də vəfat etmiş qızın anası onun istifadəçi hesabının parolunu bildiyi üçün qızın akkauntuna daxil olmağa cəhd etmiş, lakin sistem tərəfindən bu imkan əngəllənmişdi. Uzun məhkəmə mübahisələrindən sonra Ali Məhkəmə sosial şəbəkələrdə mövcud olan akkauntlara şəxsi məlumatların rəqəmsal daşıyıcıları kimi baxmış və bununla əlaqədar, hesab etmişdir ki, sosial şəbəkədəki istifadəçi akkauntu üzrə hüquqlar və vəzifələr də istifadəçinin varislərinə keçməlidir [1, s. 464-465].

Məlumat üçün qeyd etmək istərdik ki, “Facebook” şirkətinin hazırda mövcud olan istifadəçi qaydalarının 4-cü hissəsinin (Əlavə müddəalar) 5-ci bəndinin (Digər) 5-ci yarımbəndində qeyd edilir ki: “Hesabınıza xatirə statusu verildiyi halda hesabınızı idarə etmək üçün şəxs (hesabın varisi) təyin edə bilərsiniz. Parametrlərdə bu seçimi aktiv etsəniz, hesabınıza xatirə statusunun verilməsindən sonra yalnız hesabınızın varisi, yaxud hüquqi qüvvəyə malik olan vəsiyyətnamədə və ya bənzər hüquqi sənəddə vəfat etdiyiniz və ya fəaliyyət qabiliyyətini itirdiyiniz halda məzmununuza çıxışa sahib olmasını açıq şəkildə göstərdiyiniz şəxs hesabınızdakı məlumatların qismən açıqlanmasını təmin edə bilər”. Başqa sözlə, hazırda bir sıra sosial şəbəkə şirkətləri istifadəçi hesabına varislik hüququnu tanıyr və təmin edir.

Rəqəmsal əmlak üzərində vərəsəlik hüququ ilə bağlı ABŞ-ın hüquq təcrübəsindən Castin Elsvorst (*Justin Ellsworth*) işi də maraqlıdır. Castin Elsvorst ABŞ ordusunda xidmət edən serjant olmuşdu. O, 2004-cü ildə İraq müharibəsinə göndərildikdən iki ay sonra dünyasını dəyişmişdi. Castin Elsvorst müharibədə iştirak etdiyi müddət ərzində elektron poçt vasitəsilə öz ailə üzvlərinə, dostlarına və yaxınlarına müxtəlif məktublar yazmış və həmin məktublarda müharibədə iştirakla bağlı öz hiss və düçüncələrini bölüşmüşdü. Castin Elsvorstun ölümündən sonra onun ailəsi serjantın xatirəsinin yaşadılması, bir əsgərin müharibə haqqında hiss və düçüncələrinin gələcək nəsillərə ötürülə bilməsi üçün belə qərar gəlmişdi ki, Castinin hərbi xidmətdə olduğu dövrdə elektron poçt vasitəsilə öz ailə üzvlərinə və yaxınlarına yazdığı məktublar bir araya toplanılsın və dərc edilsin. Bununla əlaqədar, Castinin ailəsi onun elektron poçt ünvanının qeydiyyata alındığı “Yahoo” şirkətinə müraciət etmişdi. Cavab olaraq isə, “Yahoo” şirkətindən bildirilmişdi ki, istifadəçi,yəni Castin Elsvorst ilə aralarından olan müqavilədə istifadəçinin ölümündən sonra onun elektron poçt hesabının varislərə ötürülməsi nəzərdə tutulmamışdır və müqavilə şərtlərinə görə, istifadəçinin ölümü halında onun elektron poçt hesabı sadəcə pozulur. Bu arqumentlərlə “Yahoo” şirkəti Castin Elsvorstun ailəsinə onun elektron poçt hesabına girişi təmin etməmişdi. Yaranan hüquqi mübahisə ilə bağlı məhkəməyə müraciət edildiyində, Miçiqan ştatının Oklend dairəsinin vərəsəlik işləri üzrə məhkəməsi(*Oakland County probate court in Michigan*) 21 aprel 2005-ci il tarixli qərarında elektron poçt hesabı üzərində də vərəsəlik hüququnun olduğunu tanımışdır. Nəticədə “Yahoo” şirkəti öz korporativ şərtlərinə sadiq qalaraq, Castin Elsvorstun ailəsinə onun elektron poçt hesabına giriş verməsə də, məhkəmə qərarı ilə əlaqdar olaraq, onun elektron məktublarının surətinin Castinin atasına təqdim etməli olmuşdur.

Beləliklə, cari məqalə hüdudlarında aparılmış tədqiqatın əsas nəticələri olaraq qeyd edə bilərik ki:

-hazırda qanunvericilik səviyyəsində rəqəmsal əmlak kateqoriyasından istifadə edilməməsi hüquq təcrübəsində bir sıra sualların açıq qalmasına səbəb olur və bu sualları cavablandırmaq üçün doktrina rəqəmsal əmlak anlayışını işləyib hazırlamaq vəzifəsi ilə üz-üzə durur;

- rəqəmsal əmlaka növbəti doktrinal tərifin verilməsi mümkündür: rəqəmsal əmlak dedikdə, konkret informasiya sistemi daxilində mövcud ola bilən, iqtisadi və ya potensial dəyərə malik, ikili say sistemində kodlaşdırılmış, xüsusi texniki vasitələr və proqram təminatları vasitəsilə mülki dövriyyədə istifadə edilə bilən informasiya başa düşülür;

- İnsan Hüquqlarına dair Avropa Məhkəməsinin hüquqi mövqeyinə görə, hüquqi müdafiə altına alınan mülkiyyətin mövcudluğu, onun real maddi aləmdə mövcud olmasını, əllə toxunula bilən, gözlə görünə bilən olmasını deyil, onun bir hüquq olaraq, pozulduğu anda mülkiyyətçiyə həqiqətən də məxsus olmasını nəzərdə tutur. Odur ki, rəqəmsal mülkiyyət hüququ rəqəmsal əmlaka, yəni maddi aləmdə mövcud olmayan, virtual şəkildə mövcud olan bir əmlaka olan hüquq olduğu üçün maddi aləmdə mövcud olmasa da, mülkiyyətçiyə məxsus olan əmlak kimi başa düşülməli və zəruri hüquqi müdafiə vasitələrinə malik olmalıdır;

- rəqəmsal əmlak üzərində mülkiyyət hüququnun həyata keçirilməsinin təminatları baxımından milli qanunvericilikdə müvafiq islahatların aparılması, özəlliklə, mülki qanunvericiliyə rəqəmsal əmlakla bağlı müddəaların (məsələn, vərəsəlik institutu ilə bağlı və s.) daxil edilməsi qaçılmazdır.

**Biblioqrafiya**

1. Абросимова Е.А., Власенко Э.В. Наследование аккаунтов в социальных сетях в Германии и Швеции // Вестник Санкт-Петербургского университета. Право, 2022, Том 13, Выпуск 2, с. 452-468.

2. Архипов И.В. Цифровое гражданское право: к вопросу о смене парадигмы // Юридическая наука, 2023, № 8, с. 230-235.

3. Архипов И.В. Цифровые эквиваленты имущества в функциональной теории права // Юридическая наука, 2021, № 9, с. 8-14.

4. Камышанова А.Е. Цифровые права, цифровые финансы и цифровая валюта – фикция или имущество? // Вестник Таганрогского института управления и экономики, 2020, № 2, с. 68-71.

5. Кресс В.В. К вопросу о понятии виртуального (цифрового) имущества как объекте гражданских прав // Образование. Наука. Научные кадры, 2024, № 1, с. 164-175.

6. Тумаков А.В., Петраков Н.А. Гражданско-правовые аспекты цифрового имущества // Вестник Московского университета МВД России, 2021, № 4, с. 67-72.

7. Фатхи В.И. Правовой статус виртуального игрового имущества в контексте гражданско-правового регулирования // Вестник Юридического факультета Южного федерального университета, 2022, Том 9, № 4, с. 113–121.

8. http://technimum.com/blog/1763.html

Давудов Д.Р.♦

DOI: 10.25108/2304-1730-1749.iolr.2024.75.69-78
УДК: 342.7+347.22

## Право на цифровое имущество как составная часть права на имущество

**Аннотация:** Проблематика существования цифрового (виртуального) имущества является одним из наиболее актуальных вопросов современной юриспруденции. Объекты, названные виртуальными или цифровыми, интуитивно воспринимаются как существующее в виде программного кода в электронно-вычислительных системах. Однако эти понятия не совсем тождественны. Виртуальность относится к характеристике природы объекта, в то время как термин «цифровой» относится к характеристике формы выражения. Виртуальному противопоставляется реальное (материальное, физическое), цифровому – аналоговое. Таким образом, с учётом потребности в исследовании цифрового имущества, можно классифицировать имущество по двум основаниям: природа и форма представления. По природе можно разделить объекты на виртуальные и материальные, по форме представления на цифровые и аналоговые. Виртуальные объекты находят своё выражение преимущественно в цифровой форме, однако могут существовать и в аналоговой, например, мысли, фантазии, идеи и т.п. Феноменальность термина «цифровое имущество» заключается в том, что он объединяет различные по природе происхождения объекты имущества, сходные своей цифровой формой.

**Ключевые слова:** право на имущество; цифровизация; цифровое имущество; виртуальное имущество; понятие; гарантии.

### Библиография

1. Абросимова Е.А., Власенко Э.В. Наследование аккаунтов в социальных сетях в Германии и Швеции // Вестник Санкт-Петербургского университета. Право, 2022, Том 13, Выпуск 2, с. 452-468.
2. Архипов И.В. Цифровое гражданское право: к вопросу о смене парадигмы // Юридическая наука, 2023, № 8, с. 230-235.
3. Архипов И.В. Цифровые эквиваленты имущества в функциональной теории права // Юридическая наука, 2021, № 9, с. 8-14.
4. Камышанова А.Е. Цифровые права, цифровые финансы и цифровая валюта – фикция или имущество? // Вестник Таганрогского института управления и экономики, 2020, № 2, с. 68-71.

♦**Давудов Давуд Расим оглы** - доктор философии по праву, преподаватель кафедры «Право», Национальная Академия Авиации (Азербайджан). E-mail: ddavudov@naa.edu.az

5. Кресс В.В. К вопросу о понятии виртуального (цифрового) имущества как объекте гражданских прав // Образование. Наука. Научные кадры, 2024, № 1, с. 164-175.

6. Тумаков А.В., Петраков Н.А. Гражданско-правовые аспекты цифрового имущества // Вестник Московского университета МВД России, 2021, № 4, с. 67-72.

7. Фатхи В.И. Правовой статус виртуального игрового имущества в контексте гражданско-правового регулирования // Вестник Юридического факультета Южного федерального университета, 2022, Том 9, № 4, с. 113–121.

8. http://technimum.com/blog/1763.html